# BİSAVAD HİKMƏTİ

Sovet dönəmində çoxları partiyaya, kolxoza, pambığa şeir yazıb, söz qoşmağı özünə şərəf billəndə sözün-sənətin xiridarları, xalq ruhunun tərcümanı olan ustadlar özlərinə "bisavad", "kəmsavad" və s. bu sıradan olan təxəllüslər götürərək dövrün-zamanın ideoloji burulğanından yayınmağı bacardılar. Kolxoza, İliç lampasına söz qoşmağa savadları çatmadığını örtülü bir dillə söyləyib sazın-sözün sehrli aləminə çəkildilər. Ancaq bu "bisavad", "kəmsavad" söz xiridarları camaatın ürəyindən gələn sözlər söyləyib el-ulusun bağrı başında əzizləndilər. Çünki onlar saxta-yalançı uydurmaları deyil, sərt və acı gerçəkləri dilə gətirir, içində yaşadıqları cəmiyyətin ağrılarını qoşmalar, gəraylılar qanadında saz-söz sərraflarına yetirirdilər. Hər gün qəzetlərdən, radio və televiziyadan təbliğ olunan partiya, kolxoz şairlərindən fərqli olaraq, el-camaat dövrün, zamanın həqiqi görüntüsünü verən bu el şairlərini sevir, bəyənir, saz-söz məclislərində onların sözlərinin oxunmasını israrla tələb edirdilər. Borsunlu Məzahirin, Bisavad Teymurun, Azaflı Mikayılın, Kəmsavadın, Mülkülü Həsənin və onlarca bu sıradan olan el şairlərinin səsi-sorağı mahaldan-mahala yayılır, şeirləri əldən-ələ, dildən-dilə gəzib dolaşırdı.

Ötən əsrin əllinci illərindən saz-söz məclislərində adı tez-tez hallanan, şeirləri şagird dəftərləri vərəqlərində əldən-ələ ötürülən bir imza söz xiridarlarının diqqətini özünə çəkməyə başladı: Bisavad Teymur!

O zamandan keçən uzun onilliklər boyunca Bisavad Teymurun möhürlü qoşma və gəraylıları, təcnisləri dillərdən düşmədi, telli sazın sinəsində yuva bağladı. Sovet cəmiyyətinin, Sovet hökumətinin mədhiyyəsindən uzaq duran Bisavad Teymur kimi şairlər yuxarılar tərəfindən tənbehlənir, gözümçıxdıya salınırdı. Odur ki, onların şeirləri qəzet-jurnallara yol tapmır, kitabları nəşr edilmirdi. Ancaq bütün Gəncəbasarda onun şeirləri dillər əzbəri idi. Səsi-sorağı Borçalını, Şirvanı, Qarabağı da bürümüşdü.

... İndi zaman o zaman deyil. Tarix kolxoz, İliç lampaları mədhiyyələrini öz arxivinin ən ucuz küncünə atıb. Bisavad Teymurun möhürlü sözləri isə öz əvvəlki işığı ilə saz-söz xiridarlarının ürəyinə yol açmaqdadır.

Bisavad hikməti çox savadlıları kölgədə qoyub, çox orden-medallıların gurultulu şöhrətlərini heçə-puça çıxarıb. Əsl sənət, hikmətli kəlam Bisavadı yalançı savadlıların fövqünə qaldırıb. Bu tarixin, özü də yaxın keçmişdəki tarixin ibrətverici bir dərsidir...

Bisavad Teymur təxəllüsü ilə şeirlər düzüb qoşan Əhmədov Teymur Əsgər oğlu (1901-1984) Goranboy mahalının Tapqaraqoyunlu kəndində dünyaya göz açmışdır. Uşaqlıq çağlarında Bərdədə mədrəsə təhsili alsa da dini-ruhani fəaliyyət göstərməmişdir. Ancaq o, dərin islami biliyə və Şərq şeirinin incəliklərinə bələd olmuş, el-oba arasında Nizami, Sədi, Füzuli, Vaqif poeziyasının dərin bilicisi kimi tanınmışdır. Bu gün əlimizdə olan 16 min misradan yuxarı həcmə malik poetik irsi onun nə qədər dərin söz sərrafı olduğunun əyani göstəricisidir. Qurbani, Xəstə Qasım, Abbas Tufarqanlı, Aşıq Ələsgər, Molla Cuma ruhunun ləyaqətli davamçısı olan ustadın hər kəlməsində ağır bir hikmət qərarlaşıb.

Bisavad Teymurun bənzərsiz və unudulmaz söz yatırından bir düzüm şeiri sizlərə ərməğan edirik.